**_İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi_**

*Qurumun adı* "MERKURİ BANK OLMAYAN KREDİT TƏŞKİLATI" AÇIQ SƏHMDAR CƏMİYYƏT

*Qeydiyyata alındığı tarix* 26.09.2012

*Dövlət qeydiyyat № (VÖEN)* 1502151491

*Təşkilati-hüquqi forması* Açıq səhmdar cəmiyyəti

*Sahibkarlıq subyektinin meyarı* Orta sahibkar

*Maliyyə ili* 1 yanvar-31 dekabr

*Hüquqi ünvanı* AZ1007, BAKI ŞƏHƏRİ NƏSİMİ RAYONU, AK.MİRƏLİ QAŞQAY, ev 71

*Nizamnamə kapitalının miqdarı (ödənilmiş)* 1,333,260.00 manat

*Çıxarışın verildiyi tarix və №* 22.08.2025, 3-21-2-2-1/2-62954/2025

Sərdarov R.H.

***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi***

*Qurumun adı* "MERKURİ BANK OLMAYAN KREDİT TƏŞKİLATI" AÇIQ SƏHMDAR CƏMİYYƏT

*Dövlət qeydiyyat № (VÖEN)* 1502151491

*Təsisçilər və nizamnamə kapitalında mayalarının miqdarı*
MƏMMƏDOV MƏMMƏD ƏHMƏD OĞLU - 50 % və ƏZİZOV SƏBUHİ MƏMMƏDSANİ OĞLU - 50 %

*Müşahidə şurasının üzvləri* MƏMMƏDOV MƏMMƏD ƏHMƏD OĞLU, ƏZİZOV SƏBUHİ MƏMMƏDSANİ OĞLU, MƏMMƏDOV İLHAM VALEH OĞLU

*Qanuni təmsilçi* MƏCİDOV TEYMUR MƏHƏRRƏM OĞLU

*Çıxarışın verildiyi tarix və №* 22.08.2025, 3-21-2-2-1/2-62954/2025

Sərdarov R.H.

*Qeydiyyat orqanının adı* Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi

*Qurumun adı* **"MERKURİ BANK OLMAYAN KREDİT TƏŞKİLATI" AÇIQ SƏHMDAR CƏMİYYƏT**

*Ünvanı* AZ1007, BAKI ŞƏHƏRİ NƏSİMİ RAYONU, AK.MİRƏLİ QAŞQAY, ev.71

*Qeydiyyata alındığı tarix* 26.09.2012

***Hüquqi şəxs Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 30.04.2007-ci il tarixli Fərmanına əsasən 'bir pəncərə' prinsipi ilə dövlət qeydiyyatına alınmışdır.***

**№(VÖEN) 1502151491**

**Sərdarov Rasim Heydərəli oğlu**

Qeydiyyat orqanının rəhbəri 04.05.2023

**«DÖVLƏT QEYDİYYATINA ALINMIŞDIR»**

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət

Qeydiyyatı İdarəsi tərəfindən

Qeydiyyat № ________________

" " ____________ 2021-ci il

İdarə Rəisi: ____________________

**«TƏSDİQ EDİLMİŞDİR»**

"Merkuri Bank Olmayan Kredit Təşkilatı" Qapalı Səhmdar Cəmiyyətinin təsisçiləri tərəfindən:

Əzizov Səbuhi Məmmədsani oğlu

____________________

Məmmədov Məmməd Əhməd oğlu

____________________

Sabuhi/

"___" __________ 2021-ci il

**"Merkuri Bank Olmayan Kredit Təşkilatı"**

**Qapalı Səhmdar Cəmiyyətinin**

**Nizamnaməsi**

**Bakı – 2021**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. "Merkuri Bank Olmayan Kredit Təşkilatı" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra "Cəmiyyət" adlanacaq) "Merkuri Bank Olmayan Kredit Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin hüquqi varisidir. Cəmiyyət öz fəaliyyətini Azərbaycan Respublikasının Mülki Məcəlləsi, qüvvədə olan digər qanunvericilik aktları və bu Nizamnamə əsasında həyata keçirir.

1.2. Cəmiyyətin adı: "Merkuri Bank Olmayan Kredit Təşkilatı" Qapalı Səhmdar Cəmiyyəti

1.3. Cəmiyyətin qısaldılmış adı: "Merkuri Bank Olmayan Kredit Təşkilatı" QSC

1.4. Cəmiyyətin hüquqi ünvanı: AZ1009, Bakı şəhəri, Yasamal rayonu, Əlibəy Hüseynzadə küç., ev 63, mənzil 1

## 2. CƏMİYYƏTİN NİZAMNAMƏ KAPİTALI

2.1. Cəmiyyətin nizamnamə kapitalı 823000 (səkkiz yüz iyirmi üç min) manat həcmindədir və hər birinin nominal dəyəri 8230 (səkkiz min iki yüz otuz) manat olan 100 (yüz) ədəd adi adlı sənədsiz səhmdən ibarətdir.

2.2. Cəmiyyətin təsisçiləri:

- Əzizov Səbuhi Məmmədsani oğlu (Azərbaycan Respublikasının vətəndaşı, ASAN 1 tərəfindən 10 iyun 2017-ci il tarixdə verilmiş AZE 16546215 saylı şəxsiyyət vəsiqəsinin sahibi);

- Məmmədov Məmməd Əhməd oğlu (Azərbaycan Respublikasının vətəndaşı, DİN Şəxsiyyət Vəsiqəsi qurumu tərəfindən 05 yanvar 2019-cu il tarixdə verilmiş AA 0115462 saylı şəxsiyyət vəsiqəsinin sahibi).

2.3. Təsisçilərin Cəmiyyətin nizamnamə kapitalında malik olduğu səhmlərin miqdarı aşağıdakı kimidir:

  - Əzizov Səbuhi Məmmədsani oğlu – 411500 (dörd yüz on bir min beş yüz) manat; 50 (əlli) adi adlı sənədsiz səhm; nizamnamə kapitalının 50%-i; pul şəklində;

  - Məmmədov Məmməd Əhməd oğlu – 411500 (dörd yüz on bir min beş yüz) manat; 50 (əlli) adi adlı sənədsiz səhm; nizamnamə kapitalının 50%-i; pul şəklində.

2.4. Cəmiyyətin nizamnamə kapitalına qoyuluşlar puldan, qiymətli kağızlardan, başqa əmlakdan və ya əmlak hüquqlarından və ya pul dəyəri olan digər hüquqlardan ibarət ola bilər.

2.5. Cəmiyyətin nizamnamə kapitalı Cəmiyyətin kreditorlarının mənafelərinə təminat verən əmlakının minimum miqdarını müəyyənləşdirir. O, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş miqdardan az ola bilməz.

2.6. Əgər ikinci və hər növbəti maliyyə ili başa çatarkən Cəmiyyətin xalis aktivlərinin dəyəri nizamnamə kapitalından az olarsa, Cəmiyyət öz nizamnamə kapitalının azalmasını elan etməyə və müəyyənləşdirilmiş qaydada qeydə aldırmağa borcludur. Əgər Cəmiyyətin göstərilən aktivlərinin dəyəri nizamnamə kapitalının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş minimum miqdarından az olarsa, Cəmiyyət ləğv edilməlidir.

2.7. Cəmiyyətin səhmdarının mayasının pulla qiymətləndirilməsi Cəmiyyətin səhmdarları arasında razılaşmaya əsasən yerinə yetirilir və müstəqil ekspert yoxlamasından (auditdən) keçirilməlidir.

2.8. Cəmiyyət nizamnamə kapitalının ümumi həcminin 25%-dən çox olamamaq şərti ilə imtiyazlı səhmlər buraxmaq hüququna malikdir.

2.9. Cəmiyyətin qiymətli kağızlarının birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası Azərbaycan Respublikasının Mülki Məcəlləsinə müvafiq olaraq həyata keçirilir.

2.10. Səhmdarların Ümumi Yığıncağının qərarına əsasən Cəmiyyət səhmlərin nominal dəyərini artırmaq və ya əlavə səhmlər buraxmaq yolu ilə nizamnamə kapitalını artıra bilər.

2.11. Cəmiyyətin səhmlərinin nominal dəyərinin artırılması və əlavə səhmlərin buraxılması qaydaları maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən edilir.

2.12. Cəmiyyət buraxdığı səhmlərə açıq abunə yazılışı apara bilməz və ya başqa şəkildə onları əldə edilmək üçün şəxslərin qeyri-məhdud dairəsinə təklif edə bilməz. Cəmiyyətin səhmdarları həmin Cəmiyyətin digər səhmdarlarının satdıqları səhmləri əldə etməkdə üstünlük hüququna malikdirlər. Əgər səhmdarlardan heç biri Cəmiyyətin nizamnaməsində nəzərdə tutulan müddətdə, lakin satış elan olunduğu tarixdən etibarən otuz gün ərzində özünün üstünlük hüququndan istifadə etməzsə, sonrakı otuz gün ərzində Cəmiyyət həmin səhmləri onların mülkiyyətçisi ilə razılaşdırılmış qiymətə özü əldə edə bilər. Cəmiyyət səhmləri əldə etməkdən imtina etdikdə və ya onların qiymətinə dair razılığa gəlinmədikdə səhmlər üçüncü şəxsə özgəninkiləşdirilə bilər. Bu zaman səhmin satış qiyməti səhmdarlara və ya Cəmiyyətə təklif edilən qiymətdən aşağı olmamalıdır. Əks halda Cəmiyyət həmin əqdin etibarsız hesab edilməsini və səhmin həmin qiymətə Cəmiyyətə satılmasını məhkəmə qaydasında tələb edə bilər.

2.13. Səhmdarların Ümumi Yığıncağının qərarına əsasən Cəmiyyət səhmlərin nominal dəyərini azaltmaq yolu ilə və ya səhmlərin bir hissəsini satın alıb onların ümumi miqdarını azaltmaq yolu ilə nizamnamə kapitalını azalda bilər. Cəmiyyətin nizamnamə kapitalının azaldılması haqqında səhmdarların Ümumi Yığıncağının qərarı qəbul edildiyi gündən otuz təqvim günü müddətində Cəmiyyət kreditorlara bu barədə yazılı surətdə məlumat verməlidir. Cəmiyyətin səhmdarları onun öhdəlikləri üçün cavabdeh deyildirlər və Cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün onlara mənsub səhmlərin dəyəri həddində risk daşıyırlar.

2.14. Cəmiyyət öz səhmdarlarına bu Nizamnamə, ona edilən əlavə və dəyişikliklər ilə tanış olmaq imkanı yaratmalıdır. Səhmdarın tələbi ilə Nizamnamənin surəti ona verilməlidir.

## 3. CƏMİYYƏTİN FƏALİYYƏT DAİRƏSİ

3.1. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada az gəlirli şəxslər, məcburi köçkün, qaçqınlara, demobilizə olan və müharibədən zərər çəkən digər şəxslərə, sahibkarlara, hüquqi şəxslərə, o cümlədən aztəminatlı icmaların ümumi

rifah halının yaxşılaşdırılmasına çalışan maliyyə institutlarına qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər.

3.2. Cəmiyyət tərəfindən verilən kreditlər daşınar və daşınmaz əmlakın girovu, girov əmanəti, qarantiya, zaminlik və qanunvericilikdə nəzərdə tutulmuş digər üsullarla təmin oluna bilər. Girov əmanəti yalnız Cəmiyyətin lizensiyasında bu barədə xüsusi icazə olduqda qəbul edilə bilər.

3.3. Kreditlərin verilməsin üçün lisenziya almış Cəmiyyət aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:

3.3.1. borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);
3.3.2. lizinq;
3.3.3. veksellərin uçotu;
3.3.4. qarantiyanın verilməsi;
3.3.5. sığorta agenti xidmətinin göstərilməsi;
3.3.6. borc alanlara, o cümlədən birgə borcalan qruplarına maliyyə, texniki və idarəetmə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.

3.4. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan və Ümumi Yığıncaq tərəfindən təsdiqlənən, Cəmiyyətin məqsədləri ilə birbaşa və ya dolayısı ilə bağlı olan və bu məqsədlərə nail olmağa imkan yaradan digər fəaliyyətlə məşğul ola bilər.

3.5. Nizamnamənin 3.3 və 3.4-cü maddələrində nəzərdə tutulan fəaliyyət növləri üçün qanunvericiliklə lisenziyanın alınması tələb olunduqda, Cəmiyyət həmin fəaliyyət növləri ilə müvafiq lisenziya aldıqdan sonra məşğul ola bilər.

3.6. Cəmiyyətin fəaliyyəti aşaıdakı mənbələr hesabına maliyyələşdirilə bilər:

3.6.1. nizamnamə (şərikli) kapitalı (əmlak haqları) və əldə edilmiş gəlirlər;
3.6.2. cəlb edilmiş kreditlər;
3.6.3. fiziki və hüquqi şəxslərin ianələri, qrantları və digər formalarda əvəzsiz olaraq ayırdıqları vəsaitlər;
3.6.4. qanunvericilikdə qadağan olunmayan digər mənbələrdən əldə edilən vəsaitlər.

3.7. Beynəlxalq təşkilatlar, xarici ölkələrin hökumətləri və digər donorlar tərəfindən əvəzsiz olaraq ayrılan vəsaitlər, habelə onlardan əldə olunan gəlirlər BOKT-lər tərəfindən Azərbaycan Respublikasından kənara çıxarılmamalıdır.

## 4. CƏMİYYƏTİN İDARƏETMƏ ORQANLARI

4.1. **Cəmiyyətin Səhmdarlarının Ümumi Yığıncağı.**

4.1.1. Cəmiyyətin ali idarəetmə orqanı onun səhmdarlarının Ümumi Yığıncağıdır (bundan sonra "Ümumi Yığıncaq"). Ümumi Yığıncaq növbəti və növbədənkənar ola bilər.

4.1.2. Cəmiyyətin Növbəti ümumi yığıncağı ildə bir dəfədən az olmayaraq çağırılmalıdır (illik ümumi yığıncaq).

4.1.3. İllik ümumi yığıncağı maliyyə ili bitdikdən sonra altı aydan gec olmayaraq icra orqanı tərəfindən çağırılır və bu barədə səhmdarlara məlumat verilir.

4.1.4. Ümumi Yığıncağının çağırılmasına qırx beş gün qalmış səhmdarlara bu barədə yazılı bildiriş göndərilməlidir.

4.1.5. Ümumi Yığıncağının çağırılması barədə bildirişdə aşağıdakılar göstərilməlidir:

4.1.5.1. Cəmiyyətin adı və olduğu yer;
4.1.5.2. Ümumi Yığıncağın keçirilmə tarixi, vaxtı və ünvanı;
4.1.5.3. Ümumi Yığıncağın gündəliyi;
4.1.5.4. Ümumi Yığıncağın gündəliyi üzrə materiallarla tanış olunma qaydası.

4.1.6. Ümumi Yığıncağın müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

4.1.6.1. Cəmiyyətin Nizamnaməsini və nizamnamə kapitalının miqdarını dəyişdirmək;
4.1.6.2. Cəmiyyətin Müşahidə Şurasının üzvlərini seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
4.1.6.3. Cəmiyyətin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
4.1.6.4. Cəmiyyətin illik hesabatlarını, maliyyə hesabatlarını təsdiq etmək, mənfəətini və zərərini bölüşdürmək;
4.1.6.5. Mənfəətin bölüşdürülməsi və zərərin ödənilməsi qaydalarını müəyyən etmək;
4.1.6.6. Mülki Məcəllənin 49-1.2-ci və 99.3-cü maddələrində nəzərdə tutulmuş əqdlərin bağlanması haqqında qərar qəbul etmək;
4.1.6.7. Cəmiyyətin yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək.

4.1.7. Səhmdarların Ümumi Yığıncağının müstəsna səlahiyyətinə aid edilmiş məsələlər həll edilmək üçün onun tərəfindən Cəmiyyətin icra orqanına verilə bilməz.

4.1.8. Səsli səhmlərin ən azı altmış faizinin sahibləri iştirak etdikdə Ümumi Yığıncaq səlahiyyətlidir.

4.1.9. Ümumi Yığıncaqda yetərsay olmadıqda, Ümumi Yığıncaq bu Nizamnamənin 4.1.18-ci bəndi ilə müəyyən edilmiş qaydada yenidən çağırılmalıdır. Bu zaman Ümumi Yığıncağın gündəliyi dəyişdirilməməlidir. Yenidən çağırılan Ümumi Yığıncaq səsli səhmlərin 40 faizinin sahibləri iştirak etdikdə səlahiyyətlidir.

4.1.10. Yenidən çağırılan yığıncaqda yetərsay olmadıqda, Ümumi Yığıncaq bu Nizamnamənin 4.1.18-ci bəndi ilə müəyyən edilmiş qaydada, gündəliyi dəyişdirilmədən təkrarən çağırılmalıdır. Təkrarən çağırılan Ümumi Yığıncaq səsli səhmlərin 25 faizinin sahibləri iştirak etdikdə səlahiyyətlidir.

4.1.11. Bu Nizamnamənin 4.1.10-cu bəndinə əsasən təkrarən çağırılan Ümumi Yığıncağın keçirilməsi üçün yetərsay təmin olunmadıqda, Cəmiyyət maliyyə bazarlarına nəzarət orqanına məlumat verərək yetərsaydan asılı olmadan Ümumi Yığıncağın qərarı ilə və ya maliyyə bazarlarına nəzarət orqanının iddiası əsasında məhkəmənin qərarı ilə ləğv edilə bilər. Səhmdarların Cəmiyyətin ləğv edilməsi haqqında Ümumi Yığıncağın qərarından məhkəməyə şikayət etmək hüququ vardır.

4.1.12. Ümumi Yığıncağında səsvermə "bir səsli səhm — bir səsdir" prinsipi əsasında həyata keçirilir.

4.1.13. Səhmdarların ümumi yığıncağının qərarı Ümumi Yığıncaqda iştirak edən səhmdarların sadə səs çoxluğu ilə qəbul edilir.

4.1.14. Cəmiyyətin yenidən təşkili, ləğvi, Nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi haqqında qərarlar səhmdarların Ümumi Yığıncağında səsvermə hüququna malik olan səhmdarların üçdə iki səs çoxluğu ilə qəbul edilir.

4.1.15. Aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyəri Cəmiyyətin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil etdikdə, həmin əqd Cəmiyyət tərəfindən cəlb edilmiş müstəqil auditorun rəyi və Ümumi Yığıncağın sadə səs çoxluğu ilə qəbul edilmiş qərarı ilə bağlanılır. Həmin əqdə münasibətdə aidiyyəti şəxs olan iştirakçı məsələ ilə əlaqədar olan səsvermədə iştirak edə bilməz.

4.1.16. Növbədənkənar Ümumi Yığıncaq Müşahidə Şurasının öz təşəbbüsü ilə və ya səsli səhmlərin on faizinə malik olan səhmdarların yazılı tələbi ilə Cəmiyyətin icra orqanı tərəfindən çağırılır. Cəmiyyətin Müşahidə Şurası olmadıqda səhmdarların növbədənkənar Ümumi Yığıncağı icra orqanının təşəbbüsü ilə çağırılır.

4.1.17. Növbədənkənar Ümumi Yığıncağın çağırılması tələbində gündəliyə təklif olunan məsələlər göstərilməlidir. Həmin məsələlər yığıncağın gündəliyinə mütləq salınmalıdır.

4.1.18. Növbədənkənar Ümumi Yığıncağın çağırılması haqqında tələbin (təşəbbüsün) daxil olduğu gündən etibarən icra orqanı aşağıdakıları yerinə yetirməlidir:

- 3.1.17.1 üç iş günü müddətində səhmdarların Ümumi Yığıncağının vaxtını və yerini təyin etməlidir;
- 3.1.17.2 beş iş günü müddətində səhmdarların Ümumi Yığıncağının çağırılması barədə bildirişləri səhmdarlara göndərməlidir;
- 3.1.17.3 otuz gündən tez, qırx beş gündən gec olmayaraq səhmdarların Ümumi Yığıncağının keçirilməsini təmin etməlidir.

4.1.19. Ümumi Yığıncağa səhmdarların sadə səs çoxluğu ilə seçilən sədr sədrlik edir.

4.1.20. Ümumi Yığıncağın bütün iclasları protokollaşdırılır, yığıncaq bitdikdən sonra üç iş günündən gec olmayaraq iki nüsxədə tərtib olunur, Ümumi Yığıncağın sədri və katibi tərəfindən imzalandıqdan sonra Cəmiyyətin möhürü ilə təsdiq edilir.

4.1.21. Cəmiyyətin səhmdarları və ya onların səlahiyyətli nümayəndələri Ümumi Yığıncağın iclas protokolları ilə tanış ola bilərlər. Ümumi Yığıncağın Protokolunda aşağıdakılar göstərilir:

- 4.1.21.1. Ümumi Yığıncağın keçirilmə vaxtı və yeri;
- 4.1.21.2. Ümumi Yığıncağın gündəliyi;
- 4.1.21.3. Ümumi Yığıncağın iştirakçılarının səsli səhmlərinin sayı;
- 4.1.21.4. İştirak edən səsvermə hüququna malik olan səhmdarların sayı;
- 4.1.21.5. Çıxışların xülasəsi;
- 4.1.21.6. Səsə qoyulan hər bir məsələ üzrə səsvermənin nəticələri;
- 4.1.21.7. Ümumi Yığıncaq tərəfindən qəbul edilmiş qərarın dəqiq və səlis ifadə olunmuş mətni.

4.1.22. Səhmdarın tələbi ilə protokolun surəti ona təqdim edilməlidir.

4.1.23. Ümumi Yığıncağın qərarları Cəmiyyətin bütün orqanları tərəfindən qeyri-şərtsiz icra edilir.

4.1.24. Ümumi Yığıncağın gündəliyinə daxil edilməmiş məsələlər üzrə qərar qəbul edə bilməz.

4.1.25. Səhmdarların Ümumi Yığıncağı tərəfindən qəbul edilmiş qərarlar on beş təqvim günündən gec olmayaraq səhmdarlara elan edilməlidir.

4.1.26. Səhmdarların Ümumi Yığıncağının qərarından səhmdar məhkəməyə şikayət edə bilər.

4.2. **Cəmiyyətin Müşahidə Şurası.**

4.2.1. Cəmiyyətin Müşahidə Şurası öz səlahiyyətləri hüdudlarında ümumi rəhbərliyi və Cəmiyyətin fəaliyyəti üzərində nəzarəti həyata keçirir.

4.2.2. Müşahidə Şurasının üzvləri ümumi yığıncaq tərəfindən üç ildən artıq olmayan müddətə seçilirlər.

4.2.3. Yalnız fiziki şəxslər Müşahidə Şurasının üzvü seçilə bilər. Cəmiyyətin səhmdarı olmayan şəxslər Müşahidə Şurasının üzvü seçilə bilər.

4.2.4. Cəmiyyətin icra orqanlarının üzvləri və ya direktoru Müşahidə Şurasına üzv seçilə bilməz.

4.2.5. Cəmiyyətin Müşahidə Şurası 3 nəfər üzvdən ibarətdir.

4.2.6. Müşahidə Şurasının sədri Ümumi Yığıncaq tərəfindən Müşahidə Şurasının üzvləri arasından seçilir.

4.2.7. Müşahidə Şurasının sədri onun iclaslarını üç ayda bir dəfədən az olmayaraq çağırır və iclaslara sədrlik edir.

4.2.8. Müşahidə Şurasının iclasında hər üzv bir səsə malik olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslərin sayı bərabər bölünərsə, şuranın sədrinin səsi qərarın qəbul edilməsi və ya rədd edilməsi üçün həlledici hesab edilir.

4.2.9. Müşahidə Şurasının iclası çağırıldıqda, iclasın yerini, vaxtını, iştirakçılarını, gündəliyini, çıxışların xülasəsini, səsvermənin nəticələrini və qərarlarını əks etdirən protokol tərtib edilir. Həmin protokol şuranın sədri tərəfindən imzalanır.

4.2.10. Müşahidə Şurasının üzvləri Mülki Məcəllənin 49-1.5-ci maddəsində nəzərdə tutulmuş hallarda müvafiq məlumatı Cəmiyyətin iştirakçılarına yazılı şəkildə təqdim etməlidirlər.

4.2.11. Cəmiyyətin İdarə Heyətinin aşağıdakı qərarları Müşahidə Şurası tərəfindən təsdiq olunur:

4.2.11.1. İyirmi min (20.000) AZN/ABŞ dollarından çox məbləğdə təmin olunmamış kreditlərin verilməsinə dair qərarlar;
4.2.11.2. Girov siyasətinə dair qərarlar, girov əmanətinə sərəncam verilməsi və bu səlahiyyətin həvalə edilməsi ilə bağlı qərarlar;
4.2.11.3. Vəzifəli şəxslərin Cəmiyyətə vurduqları zərərə görə məsuliyyətlərinə dair qərarlar;
4.2.11.4. Cəmiyyətin daxili siyasəti ilə nəzərdə tutulan digər qərarlar.

4.2.12. Müşahidə Şurası aşağıdakı səlahiyyətlərə malikdir:

4.2.12.1. Cəmiyyətin fəaliyyətinin prioritet istiqamətlərini müəyyənləşdirmək;
4.2.12.2. Səhmdarların növbəti və növbədənkənar ümumi yığıncaqlarını çağırmaq;

4.2.12.3. Cəmiyyətin İdarə Heyətinin fəaliyyətinə nəzarəti həyata keçirmək və ondan fəaliyyəti barədə hesabat tələb etmək;
4.2.12.4. Cəmiyyətin kreditlər üzrə faiz dərəcələri, aktivlərin yerləşdirilməsi və kateqoriyaları barəsində siyasətini, habelə Cəmiyyətin ümumi maliyyə, uçot, inzibati və kadr siyasətini müəyyənləşdirmək;
4.2.12.5. Cəmiyyətin büdcəsini təsdiq etmək;
4.2.12.6. Filiallar, şöbələr və nümayəndəliklər yaratmaq, onların fəaliyyətlərinə xitam vermək və əsasnamələrini təsdiq etmək;
4.2.12.7. Kənar və daxili auditorların, habelə yoxlayıcı orqanların yoxlamaların nəticələrini nəzərdən keçirmək, təsdiq etmək və bu yoxlamaların yekunlarına dair tədbirlər görmək;
4.2.12.8. Cəmiyyətin iştirakçısı olduğu hüquqi şəxslərin iştirakçılarının ümumi yığıncaqlarında iştirak edəcək nümayəndəni təyin etmək və onun səlahiyyətlərini müəyyən etmək;
4.2.12.9. Cəmiyyətin digər hüquqi şəxslərin kapitalında iştirakı barədə qərarlar qəbul etmək;
4.2.12.10. Cəmiyyətin Nizamnamə kapitalının 50 (əlli) faizindən və ya Müşahidə Şurasının qərarına əsasən digər məbləğdən artıq məbləğdə Cəmiyyət adından əqdlərin bağlanmasına və xərclərin edilməsinə, o cümlədən kreditlərə və borclara, əsas vəsaitlərin əldə edilməsinə, lizinqinə, dəyişdirilməsinə, verilməsinə, girov qoyulmasına, yerləşdirilməsinə, və ya yerləşdirilməsi adi biznes fəaliyyətindən kənarda olmaq halları daxil olmaqla biznes məqsədi üçün hər bir əmlak əldə edilməsinə və ya satılmasına dair qərarlar qəbul etmək;
4.2.12.11. Aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyəri Cəmiyyətin aktivlərinin 5 faizədək hissəsini təşkil etdikdə, həmin əqdin bağlanmasına dair qərar qəbul etmək. Bu halda Müşahidə Şurasının iclasında aidiyyəti şəxs olan üzv səsvermədə iştirak edə bilməz;
4.2.12.12. Növbəti və tələb olunduğu hallarda növbədənkənar auditin keçirilməsi barədə qərar qəbul etmək və bu məqsədlə kənar auditoru təyin və azad etmək.

4.2.13. Nizamnamənin 3.2.11, 3.2.12.4 – 3.2.12.12-ci maddələrində nəzərdə tutulmuş məsələlərlə bağlı qərar qəbul edilməsi Müşahidə Şurasının müstəsna səlahiyyətinə aiddir.

4.3. **Cəmiyyətin İdarə Heyəti.**

4.3.1. Cəmiyyətin gündəlik idarə olunması ilə məşğul olan və Cəmiyyətin maraqlarını üçüncü tərəflər qarşısında təmsil edən İdarə Heyətini Ümumi Yığıncaq təyin edir, onun fəaliyyətini dayandırır və ya vəzifədən azad edir. İdarə Heyəti Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir, müşahidə şurasına və Ümumi Yığıncağa hesabat verir. Mülki Məcəllə ilə və ya bu Nizamnamə ilə Cəmiyyətin digər idarəetmə orqanlarının müstəsna səlahiyyətinə aid edilməmiş bütün məsələlərin həlli Cəmiyyətin İdarə Heyətinin səlahiyyətinə aiddir.

4.3.2. İdarə Heyəti:

4.3.2.1. Bu Nizamnaməyə əsasən Ümumi Yığıncağın və Müşahidə Şurasının müzakirəsinə veriləcək məsələlərin ilkin müzakirəsini həyata keçirir;
4.3.2.2. İllik, orta və uzun müddətli fəaliyyət planlarını təsdiq edir;
4.3.2.3. Ümumi Yığıncağın və Müşahidə Şurasının qərarlarını yerinə yetirmək üçün lazımi tədbirlər görür;
4.3.2.4. Ümumi Yığıncağın və Müşahidə Şurasının qərarlarının həyata keçirilməsini təmin edir.

4.3.3. İdarə heyəti sədr də daxil olmaqla üç (3) üzvdən ibarət olur.

4.3.4. İdarə Heyətinin üzvləri dörd (4) illik müddətə seçilir. İdarə Heyətinin hər hansı bir üzvü Ümumi Yığıncağa bildiriş verərək istənilən zaman istefa verə bilər. Cəmiyyətin səhmlərinin iyirmi faizinə malik olan səhmdar, habelə Müşahidə Şurasının üzvü Cəmiyyətinin İdarə Heyətinin üzvü seçilə bilməz.

4.3.5. İdarə Heyətinin sədrinin təşəbbüsü ilə İdarə Heyətinin iclasları ayda bir (1) dəfədən az olmayaraq çağırılır.

4.3.6. İdarə Heyətinin yığıncağını çağıran şəxs İdarə Heyətinə belə yığıncaq haqqında müvafiq bildiriş verməlidir. Belə bildiriş verilmədikdə, lakin yığıncaqda kvorum əldə olunduğu və yığıncaqda iştirak etməyən İdarə Heyətinin üzvləri bildiriş almaq hüququndan imtina etdikləri halda, yığıncaqda qəbul olunan qərarlar etibarlı sayılır.

4.3.7. İdarə Heyətinin yığıncaqlarına İdarə Heyətinin sədri sədrlik edir. Hər yığıncaqda İdarə Heyətinin üzvləri yığıncaqda iştirak edən şəxslər arasında yığıncağın katibini seçir. İdarə Heyətinin qərarları İdarə Heyətinin üzvlərinin sadə səs çoxluğu ilə qəbul olunur. Səslər bərabər olduqda İdarə Heyətinin sədrinin səsi həlledicidir. Yığıncaqda İdarə Heyətinin iki üzvü iştirak etdiyi halda, yığıncaq lazımı qaydada keçirilmiş hesab olunur. Əgər İdarə Heyətinin yığıncağının keçirilməsi üçün kvorum əldə olunmayıbsa, yığıncaq təxirə salınır.

4.3.8. Qanunvericilikdə qadağan olunmadığı halda, İdarə Heyətinin üzvləri yığıncaqlarda telefon və ya hər hansı bənzər bir rabitə vasitəsi ilə və yığıncaqda bu cür iştirak edən üzvlərin bir-birlərini eşitmək və sonradan 3 iş günü ərzində yazılı təsdiq etmək şərti ilə iştirak edə bilərlər. Bu cür iştirak üsulu yığıncaqda şəxsən iştirak kimi hesab edilir.

4.3.9. Ümuni Yığıncaq İdarə Heyəti üzvlərinin göstərdikləri xidmətə görə aldıqları haqların məbləğini müəyyən edir.

4.3.10. İdarə Heyətinin sədri Ümumi Yığıncağın qərarı ilə seçilə, azad edilə və ya yenidən seçilə bilər. Azərbaycan Respublikasının qanunvericiliyi və bu Nizamnaməyə əsasən İdarə Heyətinin sədri İdarə Heyətinin fəaliyyətini idarə etmək səlahiyyətlərinə malikdir.

4.3.11. Azərbaycan Respublikası qanunvericiliyi ilə qadağan olunmadığı təqdirdə və ya Ümumi Yığıncaq tərəfindən ayrı qayda nəzərdə tutulmadığı halda, İdarə Heyətinin sədri aşağıdakı səlahiyyətlərə malikdir:

4.3.11.1.1. Cəmiyyətin fəaliyyətinin bütün sahələri haqqında İdarə Heyətinə məlumat vermək;

4.3.11.1.2. Azərbaycan Respublikasında həyata keçirilən əməliyyatlara aid olan məsələlərlə bağlı dövlət orqanları, banklar, özəl şirkətlər və fiziki şəxslərlə əlaqə saxlamaq;

4.3.11.1.3. Vəkalətnaməsi olmadan Cəmiyyətin adından müqavilələr və sənədlər imzalamaq və Cəmiyyəti üçüncü tərəf qarşısında təmsil etmək. Bütün digər şəxslərin Cəmiyyətin adından müqavilə və sənədləri imzalamaq hüququna malik olmaları üçün onların İdarə Heyətinin sədri tərəfindən imzalanan vəkalətnamələri olmalıdır.

4.3.11.1.4. Cəmiyyətin iş prosesini idarə və təşkil etmək;

4.3.11.1.5. Ümumi Yığıncaq və ya İdarə Heyətinin nəzərinə çardırılacaq və onlar tərəfindən qəbul olunacaq məlumatlandırıcı və analitik xarakterli materiallar və digər aktlar hazırlamaq;

4.3.11.1.6. Ümumi Yığıncağın və İdarə Heyətinin müvafiq səlahiyyətləri dairəsində olan məsələlərə dair təklif vermək;

4.3.11.1.7. Müvafiq göstərişlər verildiyi halda, Ümumi yığıncağın və İdarə Heyətinin qərarlarını icra etmək;

4.3.11.1.8. İllik iş planında göstərildiyi kimi maliyyə və fəaliyyət planlarının həyata keçirilməsi üçün tədbirlər görmək;

4.3.11.1.9. Cəmiyyət tərəfindən kredit verilmiş şəxslərin öz öhdəliklərini vaxtında icra etmələri üçün qanuni tədbirlər görmək;

4.3.11.1.10. İşçiləri işə götürmək və vəzifələrə təyin etmək, onların işlərinə nəzarət etmək və əmək haqqı ödənilməsi strukturunu müəyyən etmək;

4.3.11.1.11. İdarə Heyəti sədrinin saləhiyyətlərində olan və Ümumi Yığıncaq və ya İdarə Heyəti tərəfindən ona həvalə edilən digər vəzifiləri icra etmək.

4.3.12. Öz vəzifələrini icra edərkən İdarə Heyətinin sədri Müşahidə Şurası və Ümumi Yığıncağın göstərişlərinə əməl etməlidir.

4.3.13. Cəmiyyətin İdarə Heyətinin üzvlərinin şəxsi marağı ilə Cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə Mülki Məcəllənin 49-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda Cəmiyyətin İdarə Heyətinin rəhbəri və ya digər üzvləri müvafiq məlumatı Cəmiyyətin Müşahidə Şurasına, o olmadıqda Səhmdarların Ümumi Yığıncağına yazılı şəkildə təqdim etməlidirlər. Cəmiyyətin maraqlarına zidd olan əqdlərin bağlanılması qanunla ayrı qayda nəzərdə tutulmamışdırsa, müvafiq idarəetmə orqanının qərarı əsasında həyata keçirilə bilər.

4.4. **Cəmiyyətin Audit Komitəsi.**

4.4.1. Cəmiyyətin daxili audit siyasətinin və strategiyasının hazırlanması, həyata keçirilməsi və auditor nəzarətinin təşkili Cəmiyyətin Audit Komitəsi tərəfindən həyata keçirilir.

4.4.2. Cəmiyyətin Audit Komitəsinin formalaşdırılması qaydaları, onun tərkibi və fəaliyyətinin qaydası qanunla və bu Nizamnamə ilə müəyyən edilir.

4.4.3. Cəmiyyətin icra orqanının üzvləri və (və ya) Cəmiyyətin səhmdarları Audit Komitəsinin üzvü ola bilməzlər. Cəmiyyətin Müşahidə Şurasının üzvləri Audit Komitəsinin üzvü ola bilərlər.

4.4.4. Cəmiyyətin fəaliyyətinin daxili auditi Cəmiyyətin Audit Komitəsinin təşəbbüsü ilə Ümumi Yığıncağın və ya Müşahidə Şurasının qərarı ilə və ya Cəmiyyətin səsli səhmlərinin on faizindən artıq hissəsinə malik olan səhmdarların və cəmiyyətin icra orqanının tələbi ilə həyata keçirilir.

4.4.5. Cəmiyyətin Audit Komitəsinin tələbi ilə cəmiyyətin bütün orqanları və vəzifəli şəxsləri cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyəti ilə əlaqədar olan sənədləri təqdim etməlidirlər.

4.4.6. Audit Komitəsi Cəmiyyətin Müşahidə Şurasına tabedir.

## 5. CƏMİYYƏTİN SƏHMDARLARI, ONLARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

5.1. Cəmiyyətin səhmdarı Cəmiyyətin bir və ya daha çox sayda səhmlərinin mülkiyyətçisi olan fiziki və (və ya) hüquqi şəxsdir.

5.2. Bir neçə şəxsə bir səhm mənsub olduğu halda, onlar Cəmiyyətə münasibətdə bir səhmdar kimi tanınırlar və öz hüquqlarını nümayəndə vasitəsi ilə həyata keçirə bilərlər.

5.3. Cəmiyyətin xalis mənfəəti vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranır və qanunvericiliklə və Cəmiyyətin Nizamnaməsi ilə müəyyən edilən məqsədlərə yönəldilə bilər. Xalis mənfəətin Cəmiyyətin maliyyə ili üzrə bölüşdürülməsi Ümumi Yığıncağın qərarı ilə qəbul edilir.

5.4. Cəmiyyət nizamnamədə müəyyən edilməsindən asılı olaraq dövriyyədə olan səhmlər üzrə aralıq (rüblük, yarımillik) və illik dividendlər ödəyə bilər.

5.5. Cəmiyyətin adi səhminin sahibi olan səhmdarının qanunvericiliklə müəyyən edilmiş qaydada aşağıdakı hüquqları vardır:

5.5.1. Cəmiyyətin idarə edilməsində Mülki Məcəllə, digər qanunvericiliklə və bu Nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;
5.5.2. Qanunvericiliklə müəyyən edilmiş qaydada, Cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və maliyyə hesabatları ilə tanış olmaq;
5.5.3. Cəmiyyətin səhmdarlarının Ümumi Yığıncağının çağırılmasını tələb etmək;
5.5.4. Cəmiyyətin səhmdarlarının Ümumi Yığıncağının gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək;
5.5.5. Cəmiyyətin səhmdarlarının Ümumi Yığıncağında səsvermə hüququ ilə şəxsən və ya etibarnamə əsasında nümayəndəsi vasitəsilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;
5.5.6. Cəmiyyətin fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;
5.5.7. Cəmiyyətin xalis mənfəətindən dividend almaq;
5.5.8. Cəmiyyətin fəaliyyətinə xitam verildikdə, Cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq;
5.5.9. Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilən digər hüquqlara malik olmaq.

5.6. Cəmiyyətin səhmləri səhmdar olan fiziki şəxslərin vərəsələrinə və ya hüquqi şəxslərin hüquq varislərinə Cəmiyyətin qalan səhmdarlarının razılığı olmadan keçir.

5.7. Cəmiyyətin səhmdarlarının vəzifələri aşağıdakılardır:

5.7.1. qanuna və (və ya) bu Nizamnaməyə əsasən kommersiya sirri və ya məxfi hesab olunan məlumatları üçüncü şəxslərə açıqlamamaq;
5.7.2. səhmdarların reyestrində ona dair daxil edilmiş məlumatların dəyişilməsi barədə reyestrsaxlayıcısına on təqvim günü ərzində yazılı bildiriş vermək;
5.7.3. qanunvericiliklə və bu Nizamnamə ilə müəyyən edilmiş başqa vəzifələri yerinə yetirmək.

## 6. CƏMİYYƏTİN YERLƏŞDİRİLMİŞ SƏHMLƏRİNİN GERİ ALINMASI

6.1. Cəmiyyət tərəfindən yerləşdirilmiş səhmlərin geri alınması Mülki Məcəllə və ya Cəmiyyətin Nizamnaməsi ilə müəyyən edilmiş hallarda səhmdarların tələbi ilə həyata keçirilir.

6.2. Cəmiyyət nizamnamə kapitalının miqdarını və səhmlərin sayını azaltmaq məqsədi ilə, Ümumi Yığıncağın qərarı əsasında, əvvəl yerləşdirilmiş səhmlərinin bir hissəsini geri ala bilər. Bu zaman dövriyyədə qalan səhmlərin ümumi nominal dəyəri qanunvericiliklə nizamnamə kapitalı üçün müəyyən edilmiş məbləğin minimal həddindən aşağı olmamalıdır.

6.3. Səhmlərin geri alınması səhm sahiblərinin razılığı ilə, səhmlərin geri alınması fond birjası vasitəsi ilə həyata keçirildiyi hal istisna olunmaqla, Ümumi Yığıncaqda səhmin müəyyən olunmuş qiyməti ilə həyata keçirilir.

6.4. Aşağıdakı hallarda Cəmiyyətin səhmlərinin geri alınması qərarı qəbul edilə bilməz:

- 6.4.1. Cəmiyyətin nizamnamə kapitalı tam formalaşmadıqda;
- 6.4.2. Cəmiyyətin ləğvi barədə qərar qəbul edildikdə;
- 6.4.3. Səhmdarların tələbi əsasında onların səhmlərinin geri alınması başa çatmadıqda.

6.5. Geri alınmış səhmlər səsvermə zamanı nəzərə alınmır və onlar üzrə dividendlər hesablanmır. Bu səhmlər geri satın alındığı tarixdən bir il müddətində ya təkrarən yerləşdirilməli, ya da Ümumi Yığıncağın qərarı ilə ləğv edilməlidir.

## 7. CƏMİYYƏTİN SƏHMDARLARININ REYESTRİ

7.1. Cəmiyyət dövlət qeydiyyatına alındığı tarixdən otuz təqvim günündən gec olmayaraq səhmdarlarının reyestrinin aparılmasını təmin etməlidir.

7.2. Səhmdar ildə bir dəfə Cəmiyyətin icra orqanından səhmdarların reyestrinin ona təqdim edilməsini tələb edə bilər. Bu halda Cəmiyyətin icra orqanı səhmdarların reyestrini beş gün ərzində həmin səhmdara təqdim etməlidir.

## 8. CƏMİYYƏTİN İŞİNİN PLANLAŞDIRILMASI, UÇOTU, HESABATI VƏ MALİYYƏ İLİ

8.1. Cəmiyyətin maliyyə ili 1 yanvar tarixindən 31 dekabr tarixinədəkdir.

8.2. Cəmiyyət öz fəaliyyətinin nəticələrinə görə qanunvericiliklə müəyyən edilmiş qaydada və formada mühasibat, əməliyyat uçotu, statistik hesabat aparır, balans tərtib edir və illik hesabatını və maliyyə hesabatlarını, habelə Mülki Məcəllə ilə müəyyən edilən digər məlumatları hamının tanış olması üçün hər il dərc edir.

## 9. CƏMİYYƏTİN YENİDƏN TƏŞKİLİ VƏ LƏĞVİ QAYDALARI

9.1. Cəmiyyət Ümumi Yığıncağın qərarı ilə könüllü surətdə yenidən təşkil və ya ləğv edilə bilər. Cəmiyyətin yenidən təşkilinin və ləğvinin başqa əsasları və qaydası Azərbaycan Respublikasının Mülki Məcəlləsi və digər normativ-hüquqi aktları ilə müəyyənləşdirilir.

| “Dövlət qeydiyyatına alınmışdır” | “Təsdiq edilmişdir” |
|---|---|
| Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin dövlət qeydiyyatı idarəsi<br><br>İdarə rəisi: Lalə Cəfərova<br><br>Bu sənəd gücləndirilmiş elektron imza vasitəsi ilə imzalanmışdır | “Merkuri Bank Olmayan Kredit Təşkilatı” Açıq Səhmdar Cəmiyyətinin təsisçiləri:<br><br>Əzizov Səbuhi Məmmədsani oğlu<br><br>Məmmədov Məmməd Əhməd oğlu |

**“Merkuri Bank Olmayan Kredit Təşkilatı” Açıq Səhmdar Cəmiyyətinin (VÖEN: 1502151491)**

**Nizamnaməsinə (“Nizamnamə”) edilmiş**

**DƏYİŞİKLİK**

**Nizamnamənin 2.1-ci bəndi aşağıdakı yeni redaksiyada verilsin:**

“2.1. Cəmiyyətin nizamnamə kapitalı 1333260 (bir milyon üç yüz otuz üç min iki yüz altmış) manat həcmindədir və hər birinin nominal dəyəri 8230 (səkkiz min iki yüz otuz) manat olan 162 (bir yüz altmış iki) ədəd adi adlı sənədsiz səhmdən ibarətdir.”

**Nizamnamənin 2.3-ci bəndi aşağıdakı yeni redaksiyada verilsin:**

“2.3. Səhmdarların Cəmiyyətin nizamnamə kapitalında malik olduğu səhmlərin miqdarı aşağıdakı kimidir:

- Əzizov Səbuhi Məmmədsani oğlu – 666630 (altı yüz altmış altı min altı yüz otuz) manat, 81 (səksən bir) ədəd adi adlı sənədsiz səhm; nizamnamə kapitalının 50%-i; pul şəklində;
- Məmmədov Məmməd Əhməd oğlu – 666630 (altı yüz altmış altı min altı yüz otuz) manat, 81 (səksən bir) ədəd adi adlı sənədsiz səhm; nizamnamə kapitalının 50%-i; pul şəklində;”